*İnsan Alverinə Qarşı Mübarizə*

*üzrə Milli Koordinator*

# Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair

# MƏLUMAT

*Bakı - 2025*

# M Ü N D Ə R İ C A T


Giriş......................................................................................................1

Qanunvericilik, profilaktika, maarifləndirmə, təlim və treninqlər...............3

Beynəlxalq əməkdaşlıq.......................................................................13

Məcburi əməyin qarşısının alınması....................................................15

Cinayət təqibi və qurbanlarla iş...........................................................19

Qarşıda duran vəzifələr.......................................................................24

İnsan alveri ilə mübarizənin nəticələrinə dair statistik göstəricilər.........25

## Giriş

Bu hesabat "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 7.5-ci maddəsinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğunun, Ombudsman Aparatının, Vəkillər Kollegiyasının, beynəlxalq təsisatların, 20 qeyri-hökumət təşkilatının, 32 mərkəzi və 69 yerli icra hakimiyyəti orqanının, eləcə də Daxili İşlər Nazirliyinin aparatının struktur qurumlarının və ərazi polis orqanlarının məlumatları, o cümlədən xüsusi polis qurumunun apardığı monitorinq və təhlillər əsasında hazırlanmışdır.

Qeyd edilməlidir ki, Birləşmiş Millətlər Təşkilatının insan alverinə qarşı mübarizə üzrə 2024-cü ildə açıqladığı 156 ölkəni əhatə edən son Qlobal Hesabatdan görünür ki, 2022-ci ildə aşkarlanan qurbanların sayı 2019-cu ilə nisbətən 25 faiz, pandemiyanın ən çox təsir etdiyi 2020-ci illə müqayisədə 43 faiz, uşaq qurbanların sayı isə 31 faiz artmışdır.

Aşkarlanmış qız qurbanların 60 faizi cinsi istismara, oğlan qurbanların 45 faizi əmək istismarına, daha 47 faizi cinayətkar fəaliyyətə, məcburi dilənçiliyə məruz qalmış və başqa məqsədlərə cəlb edilmişdir.

2019-2022-ci illərdə məcburi əmək qurbanlarının sayı qlobal səviyyədə 47 faiz artdığı halda, dünya üzrə məhkəmə hökmlərinin yalnız 17 faizi məcburi əmək, 72 faizi isə cinsi istismar faktları üzrə olmuşdur.

BMT-nin Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsinin məlumatına əsasən insan alverinin dinamikası da dəyişərək əvvəlki dövrlərə nisbətən qurbanların aparıldığı təyinat ölkələrinin sayı artmış, 162 millətə aid şəxs insan alveri cinayətinə məruz qalmışdır.

Bütün bunlarla yanaşı, ölkəmizin aidiyyəti dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birgə görülən tədbirlərlə müvafiq sahədə əməliyyat şəraitinə davamlı nəzarət, risk qrupuna aid şəxslərin sözügedən cinayətlərdən müdafiəsi təmin olunmuş, qurbanlar fiziki, psixoloji və sosial reabilitasiya tədbirləri ilə tam əhatə edilmişdir.

**Qanunvericilik, profilaktika, maarifləndirmə, təlim və treninqlər**

İnsan alverinə qarşı mübarizədə normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi 2024-cü ildə də davam etdirilərək "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanmış (razılaşdırılma mərhələsindədir), habelə insan alverinə qarşı mübarizədə dövlət qurumlarının qarşılıqlı fəaliyyətində səmərəliliyin artırılması və beynəlxalq öhdəliklərin icrasının təmin edilməsi məqsədilə "2025—2030-cu illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanaraq rəy və təkliflərin bildirilməsi üçün aidiyyəti dövlət orqanlarına təqdim edilmişdir.

Xarici ölkələrə əmək fəaliyyəti ilə məşğul olmaq üçün gedən vətəndaşların, eləcə də ölkə ərazisindən tranzit keçən və ölkəyə gələn əcnəbilərin insan alveri təhlükəsi barədə məlumatlandırılması məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanlarına 7.000 maarifləndirici buklet göndərilmiş, İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin internet səhifəsinə (www.insanalveri.gov.az) həyata keçirilən tədbirlərə dair 33 məlumat yerləşdirilmişdir.

Elm və Təhsil Nazirliyi ilə birgə Bakı şəhərində və respublikanın bölgələrində fəaliyyət göstərən 31 peşə təhsil müəssisəsində maarifləndirici seminarlar keçirilmiş, bu tədbirlərə hüquq-mühafizə orqanlarının əməkdaşları, gənclər, media və yerli icra hakimiyyəti orqanları yanında uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların nümayəndələri, tibb işçiləri, sahibkarlar, nəqliyyat, təhsil, sosial müdafiə, məşğulluq mərkəzlərinin əməkdaşları, vətəndaş cəmiyyətinin nümayəndələri cəlb edilmiş, iştirakçılara 3.000 ədəd buklet paylanılmışdır.

Daxili İşlər Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və aidiyyəti qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən müxtəlif telekanalların ("Xəzər", "Real", "ARB", "Space", "ATV", "İTV", "AzTV", "Dünya TV") xəbər buraxılışlarında və verilişlərində insan alverinə qarşı mübarizədə normativ hüquqi bazanın təkmilləşdirilməsi, bu cinayətlərin qarşısının alınması, müvafiq sahədə əməkdaşlığın inkişaf etdirilməsi və digər tədbirlərlə bağlı müsahibələr verilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət, Elm və Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən insan alverinə qarşı mübarizə mövzularında paytaxtda və regionlarda keçirilmiş maarifləndirmə tədbirlərində 11 mindən çox şəxs iştirak etmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə insan alverinə dair çoxsaylı təlimat kitabçaları, digər maarifləndirici vəsaitlər, eləcə də "Tibb müəssisələrindən kənarda baş verən doğuşlara nəzarətin gücləndirilməsi, belə faktlar əsasında uşaq evliliklərinin aşkarlanmasına dair" analitik materiallar hazırlanaraq əlaqədar dövlət strukturlarına göndərilmiş və sosial şəbəkələrə yerləşdirilmişdir.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən sosial platformalarda insan hüquqları, uşaqların təhsildən yayınması və baxımsızlığı, uşaq nikahlarının qarşısının alınması və s. istiqamətlər üzrə məlumatlandırıcı posterlər yayımlanmışdır.

Müxtəlif dillərdə hazırlanmış analoji vəsaitlər "Azərbaycan Dəmir Yolları", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar cəmiyyətləri tərəfindən beynəlxalq marşrutlarda hərəkət edən nəqliyyat vasitələrində, dövlət sərhədinin buraxılış məntəqələrində də təqdim olunmuş, həmçinin Bakı Beynəlxalq Avtovağzal Kompleksinin monitorlarında maarifləndirici videoçarx yayımlanmışdır.

İnsan alverinə qarşı mübarizədə fəaliyyət göstərən dövlət qurumlarına təlimlərin, ixtisaslaşmış peşə hazırlığının keçirilməsi işi də diqqətdə saxlanılaraq 58 şəhər, rayon polis orqanının rəhbər vəzifəli şəxsləri və əməkdaşları "İnsan alverinə qarşı mübarizənin əsas istiqamətləri və normativ hüquqi bazası" mövzusunda ixtisasartırma kurslarına cəlb edilmiş, 1.000-ə yaxın polis əməkdaşının iştirakı ilə təşkil edilmiş virtual təlimlərdə "İnsan alveri və məcburi əmək cinayətləri – transmilli mütəşəkkil cinayətkarlığın növü kimi", "İnsan alveri cinayəti ilə ictimai mənəviyyat əleyhinə olan cinayətlərin fərqləndirilməsi", "İnsan alveri və məcburi əmək cinayətlərinin qarşısının alınması və profilaktikası" mövzuları tədris olunmuşdur.

Elm və Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinə təhkim olunmuş 252 sosial pedaqoqa, Gənclər İdman Nazirliyi tərəfindən 160 gəncə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Uşaq Səfirlər Məclisinin üzvlərinə, həmçinin iqtisadi regionların 100-dən çox nümayəndəsinə və fəallarına, Dövlət Gömrük Komitəsi tərəfindən buraxılış məntəqələrində 158 nəzarətçi heyətə, Dövlət Miqrasiya Xidməti tərəfindən 74 əməkdaşa, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN xidmət mərkəzlərinin 50-dən artıq könüllüsünə "İnsan alveri və məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi və onlar ilə bağlı aidiyyəti dövlət orqanlarına müraciət olunması", "İnsan alveri, onun növləri, insan alveri qurbanlarına sosial yardım", "İnsan alveri qurbanlarının, əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması, həmin şəxslərə qarşı ayrı-seçkiliyin yolverilməzliyi", "Əhalinin həssas təbəqəsinin, o cümlədən miqrantlar, dilənçiliklə məşğul olan uşaqlar arasında insan alveri qurbanlarının müəyyən edilməsi üçün göstəricilərin tətbiq olunması", "Saxta və özgəsinə məxsus sənədlərin aşkarlanması və üz cizgilərinin müəyyən edilməsi", "Təhsildə sosial iş xidməti",

"İnsan alveri qurbanlarının kompensasiya almaq hüququnun təmin olunması" mövzularında təlimlər, Ədliyyə Akademiyası tərəfindən isə 37 hakim, 31 vəkil və prokurorluğun 14 əməkdaşı üçün insan alveri qurbanlarının hüquqlarının müdafiəsi mövzusunda ixtisasartırma kursu keçirilmişdir.

Eyni zamanda ədliyyə və məhkəmə orqanlarına, Vəkillər Kollegiyasına yeni qəbul edilmiş ümumilikdə 426 şəxs üçün təşkil olunmuş tədris kurslarının proqramına "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu", İnsan alveri ilə mübarizə sahəsində beynəlxalq qanunvericilik (Avropa qanunvericiliyi)", "İnsan alveri cinayətlərinin ictimai təhlükəliliyi, məişət zorakılığı və onunla mübarizə", "İnsan alveri və əlaqədar cinayət işlərinə məhkəmə qaydasında baxılmasının xüsusiyyətləri", "Uşaqların onlayn cinsi istismarına qarşı mübarizə" mövzuları daxil edilmişdir.

Polis Akademiyasının kursantlarının və dinləyicilərinin, xarici dövlətlərin xüsusi təhsil müəssisələrinin və respublikanın digər ali təhsil müəssisələrinin məzunları sırasından daxili işlər orqanlarında xidmətə qəbul edilmiş gənc zabitlər üçün ixtisasartırma kurslarında insan alverinə qarşı mübarizəyə dair mövzular tədris edilmiş, Akademiyanın əməkdaşları və kursantlar tərəfindən sərbəst işlər formasında insan alveri ilə bağlı cinayətlərin coğrafi xüsusiyyətləri, əsas göstəriciləri və profilaktikasının başlıca istiqamətləri üzrə analitik materiallar, həmçinin "İnsan alveri cinayətlərinə qarşı mübarizədə əməliyyat-axtarış tədbirlərinin tətbiqi və nəticələrindən istifadə istiqamətləri" adlı məqalə hazırlanmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dövlət Əmək Müfəttişliyi Xidmətinin regional şöbələrində işləyən əməkdaşlarına, Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının xarici dövlətlərdəki diplomatik nümayəndəlik və konsulluqlarına, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətləri tərəfindən tabelikdəki əməkdaşlara, Dövlət Turizm Agentliyi tərəfindən turizm sənayesinin 200-dən çox nümayəndəsinə insan alverinə qarşı mübarizəyə dair mövzularda təlimlər keçirilmiş və müvafiq tədbirlərdə xüsusi polis qurumunun əməkdaşları mühazirəçi qismində iştirak etmişlər.

Milli Fəaliyyət Planının icrası çərçivəsində tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi, belə faktlar əsasında erkən nikahların aşkarlanması tədbirləri də nəzarətdə saxlanılmış, Ədliyyə Nazirliyinin əməkdaşları mütəmadi olaraq tibb müəssislərində, mətbuatda, məktəblərdə, icra nümayəndəliklərində əhali ilə görüşlər keçirərək doğumun qeydiyyatının əhəmiyyəti və məcburiliyi barədə məlumatlandırma işi aparmışlar.

Doğumu dövlət qeydiyyatından kənarda qalmış uşaqların vaxtında müəyyən edilməsi məqsədilə qeydiyyat şöbələri ilə icra hakimiyyəti nümayəndəlikləri arasında surətli əlaqələndirmənin təşkili və yaranan problemlərin operativ həlli məqsədilə "Whatsapp" sosial şəbəkəsində sorğulama qrupu yaradılmışdır.

Həyata keçirilmiş tədbirlərlə 23 uşağın doğumu qeydə alınmış, 56 uşağın valideynlərinə doğum faktının müəyyən edilməsi ilə bağlı məhkəməyə müraciət etməkdə hüquqi yardım göstərilmiş, habelə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələbləri əks etdirən normativ sənəd layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

Hesabat ilində dövlət uşaq müəssisələri məzunlarının insan alveri qurbanına çevrilməsi riskinin azaldılması məqsədilə onlara sosial-hüquqi və sosial-psixoloji xidmətlər, eləcə də məşğulluqlarının təmin edilməsi ilə bağlı yardımlar davam etdirilmiş, onlardan 26 nəfəri peşə hazırlığına cəlb olunmuş, valideyn himayəsindən məhrum olmuş 15-18 yaşlı 66 uşağa ümumi və fərdi peşəyönümlü məsləhət xidməti göstərilməklə 15-i Regional Məşğulluq filiallarına, 9-u ixtisaslarına uyğun müsahibəyə yönləndirilmişdir.

Dövlət Məşğulluq Agentliyi tərəfindən valideyn himayəsindən məhrum olmuş və dövlət uşaq müəssisələrində təhsil alan 461 uşaq üçün "Gələcəyə birlikdə" layihəsi çərçivəsində "İxtisas seçimi" mövzusunda seminarlar və fərdi konsultasiyalar təşkil edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycanda övladlığa götürülmüş uşaqların həyat şəraiti ilə bağlı 1.241, əcnəbilər tərəfindən övladlığa götürülmüş uşaqların həyat şəraiti ilə bağlı 24 və himayədar ailələrə verilmiş uşaqlarla bağlı 231 monitorinq aparılmışdır.

Sosial Xidmətlər Agentliyi ilə birgə "Regional İnkişaf" İctimai Birliyi tərəfindən "Küçə mühitində olan uşaqlarla iş sahəsində aidiyyəti qurumlar arasında fəaliyyət mexanizminin inkişafı" layihəsi çərçivəsində Daxili İşlər, Elm və Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, TƏBİB, yerli icra hakimiyyətləri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə görüşlər keçirilmişdir.

Davamlı olaraq aparılan monitorinqlərlə aşkarlanmış 100 küçə uşağından 86-nın ailəsinə səfər edilmiş, baxımsız vəziyyətdə olan 5 uşaq Agentliyin sığınacağına, 1 uşaq körpələr evinə yerləşdirilmiş, 30 uşağın şəxsiyyətini təsdiq edən sənədlərin alınmasına dəstək verilmiş, təhsildən yayınan uşaqlar Elm və Təhsil Nazirliyinə, sağlamlıq problemləri ilə əlaqədar isə TƏBİB-ə yönləndirilmişdir.

İnsan alverinə qarşı mübarizədə iştirak edən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının maliyyə təminatının artırılması da diqqətdə olmaqla bu məqsədlə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən elan edilmiş qrant müsabiqəsi çərçivəsində 10 müvafiq təşkilata 140.500 manat vəsait ayrılmış, həmçinin insan alveri cinayətlərinin qurbanı olmuş şəxslərin sosial reabilitasiyasına, sığınacaqda saxlanılmasına və onlara birdəfəlik müavinətlərin verilməsinə Daxili İşlər Nazirliyi tərəfindən 59.786 manat xərclənmişdir.

## Beynəlxalq əməkdaşlıq

Hesabat ilində insan alverinə qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlar, təyinat və mənbə ölkələrinin aidiyyəti dövlət və qeyri-dövlət qurumları ilə əməkdaşlığın gücləndirilməsi işi davam etdirilmişdir.

Xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəlikləri və ixtisaslaşmış beynəlxalq qurumlar ilə informasiya və təcrübə mübadiləsi də aparılmış, habelə Amerika Birləşmiş Ştatlarının Dövlət, Ədliyyə və Əmək departamentlərinin, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupunun (QRETA), BMT-nin insan hüquqları üzrə müqavilə qurumları və İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində verilən tövsiyələr və sorğular cavablandırılmışdır.

BMT-nin Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsinin, Demokratiya və İqtisadiyyat Uğrunda Təşkilat – GUAM-ın Cinayətkarlığa Qarşı Mübarizə üzrə İşçi Qrupunun, Avropa Şurasının Miqrasiya və Qaçqınlar üzrə Xüsusi Nümayəndəliyinin Ofisi, Cinayət Problemləri üzrə Avropa Komitəsinin, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Nümayəndəliyinin,

Pakistan İslam Respublikası Daxili İşlər Nazirliyinin, ATƏT-in, Avstriya Beynəlxalq Təhsil Məktəbinin və digər beynəlxalq təşkilatların nümayəndələri ilə insan alverinə qarşı mübarizə mövzularında keçirilmiş görüş, seminar, iclas və dəyirmi masalarda xüsusi polis qurumunun əməkdaşları iştirak etmiş, müvafiq sahədə əldə olunan nəticələr və əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

Xüsusi polis qurumunun əməkdaşları müxtəlif xarici təşkilatlar tərəfindən həyata keçirilən layihələr çərçivəsində Avstriya, Serbiya, Belarusiya və Qırğızıstan respublikalarına ezam olunaraq təcrübə mübadiləsi də aparmışlar.

Təyinat ölkələrindən olan Türkiyə Respublikasının və Pakistan İslam Respublikasının aidiyyəti dövlət orqanları ilə məlumat mübadiləsinin intensivliyi artırılmış, həmin ölkələrdə gizlənmiş təqsirləndirilən şəxslərin həbs edilməsi və ekstradisiyası ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə UNİCEF arasında 2024-2025-ci illər üçün Sosial Müdafiə və Uşaq Müdafiəsi üzrə Dövri Fəaliyyət Planı imzalanmış, eyni zamanda insan alverinin qurbanları və potensial qurbanlarına göstərilən sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və digər analoji məqsədlərlə bağlı Sosial Xidmətlər Agentliyinin struktur bölmələrinin rəhbər heyəti ilə Türkiyə Respublikasının bir neçə universitetinin nümayəndə heyətləri ilə görüşlər keçirilmişdir.

Xarici ölkələrin müvafiq dövlət qurumları ilə aparılmış məlumat mübadiləsi nəticəsində üç Azərbaycan vətəndaşının Kiprin və Qvatemala Respublikasının hüquq-mühafizə orqanları tərəfindən insan alverində təqsirləndirilərək həbs edilməsi və ölkəyə readmissiya edilən şəxslər arasında bir nəfərin Yunanıstan Respublikasında insan alverinin qurbanı olması müəyyən edilmişdir.

## Məcburi əməyin qarşısının alınması

Məcburi əməyin qurbanlarının və potensial qurbanlarının müəyyən edilməsi, bu növ cinayətlərə şərait yaradan halların aradan qaldırılması ilə bağlı Milli Fəaliyyət Planında təsbit olunmuş vəzifələr də yerinə yetirilmişdir.

Bu işin səmərəli təşkil edilməsi məqsədilə 14.530 işəgötürən və onların nümayəndələrinin iştirakı ilə işçilərin əmək hüquqları, o cümlədən məcburi əmək və insan alverinin qarşısının alınması mövzularında Bakı və regionlarda 159 tədbir keçirilərək mediada və sosial şəbəkələrdə yayımlanmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi tərəfindən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin işlə təmin edilməsi və əmək bazarına qaytarılmasına köməklik məqsədilə – sosial iş yerləri üzrə əməkhaqqının bir hissəsinin maliyyələşdirməsi proqramı vasitəsilə işəgötürənlərin mütəmadi həvəsləndirilməsi həyata keçirilmiş, 15.571 nəfər işaxtaran və işsiz peşə hazırlığı kurslarına cəlb olunmuşdur.

Ötən il Əmək Məcəlləsində edilən dəyişikliyə əsasən ölkə üzrə əmək müqavilələrinin elektron sənəd formasında bağlanılmasına, əmək müqavilələrinə xitam əmrlərinin elektron imza ilə işçinin şəxsi kabinetinə göndərilməsinə, əmək münasibətləri ilə bağlı əmrlərin elektron uçotunun aparılmasına, işçi və işəgötürən arasında yazışmaların elektron kabinetlər vasitəsilə həyata keçirilməsinə, qanunvericiliyin düzgün tətbiqi üçün xəbərdarlıqların və məhdudiyyətlərin tətbiqinə başlanılmışdır.

Müvafiq yeniliklər işəgötürənlər və işçilər arasında münasibətlərin şəffaflaşmasını təmin etmiş, əmək qanunvericiliyinə elektron nəzarəti, monitorinq və təhlillərin aparılması imkanlarını genişləndirmiş, eləcə də vətəndaşların məcburi əməyin qurbanına çevrilmə riskini xeyli azaltmışdır.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti obyektlərində əmək münasibətlərinin tənzimlənməsi məqsədilə keçirilmiş 30 səyyar yoxlama zamanı 1.002 işçidən 57-nin əmək və ya xidməti (mülki) müqaviləsinin olmadığı aşkarlanmış, 12 işəgötürən hüquqi və fiziki şəxs barəsində 105.000 manat məbləğdə inzibati cərimə tətbiq edilmişdir.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin vətəndaş müraciətləri əsasında apardığı yoxlamalarla isə 676 (+164) şəxsin əmək müqaviləsi olmadan işləməsi müəyyən edilərək işəgötürənlər ümumilikdə 2.643.000 (+268.600) manat məbləğdə, habelə 7 fakt üzrə işçini əmək funksiyasına aid olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etməyə görə aidiyyəti vəzifəli şəxslər 8000 manat məbləğdə cərimələnmişdir.

Daxil olan müraciətlərə baxılması zamanı aşkarlanmış 15 yaşına çatmamış şəxsi işə cəlb etməklə bağlı daha 2 fakt üzrə təqsirkar şəxslər barəsində ümumilikdə 4.000 manat inzibati cərimə tətbiq edilmişdir.

Dövlət Miqrasiya Xidmətinin müraciəti əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 4.251 əcnəbiyə Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməyə iş icazəsi verilmiş, 5.106 əcnəbinin isə müvafiq icazə müddəti uzadılmışdır.

Hesabat ilində İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 1 (-2) məcburi əmək faktı əsasında 1 (-1) cinayət işi başlanılmış və aparılmış araşdırmalarla həmin cinayətlərdən zərər çəkmiş şəxslərin ölkə daxilində məcburi dilənçiliyə məruz qalması müəyyən olunmuşdur.

İnsan alveri və məcburi əmək qurbanlarının aşkarlanması məqsədilə keçirilmiş tədbirlər zamanı isə – 4 miqrasiya kanalı müəyyən olunaraq 15 əcnəbi saxlanılmışdır.

Keçirilən reydlər zamanı isə küçə həyatına məruz qalan, o cümlədən dilənçilik edən və qeyri-qanuni qulluğa cəlb olunan 616 azyaşlı müəyyən edilərək onları hüquqazidd əməllərə təhrik etmiş 354 valideyn haqqında qanunauyğun tədbirlər görülmüş, eyni zamanda icra hakimiyyətləri yanında fəaliyyət göstərən komissiyalara, qəyyumluq və himayədarlıq strukturlarına uşaqların sosial problemlərinin həlli məqsədilə 490 material göndərilmişdir.

Cinayət təqibi və qurbanlarla iş

İnsan alveri və məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi, istismar hallarına yol verən şəxslər haqqında müvafiq məsuliyyət tədbirlərinin görülməsi məqsədilə xüsusi polis qurumu tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 161 (+2) insan alveri və 1 (-2) məcburi əmək faktı, həmçinin insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 44 (sabit) cinayət aşkarlanmışdır.

Həmin faktlar üzrə 15 (-1) cinayət işi başlanılaraq 16 şəxs (-2; 13 qadın, 3 kişi) təqsirləndirilən qismində cəlb edilmişdir. Ümumilikdə 13 (+2) cinayət işinin (6-ı ötən illərin) istintaqı tamamlanıb 14 nəfər (sabit; 11-i qadın, 3-ü kişi) məhkəmə məsuliyyətinə verilmiş, insan alverçilərinin 11-i (+1) haqqında ittihamedici hökmlər çıxarılmışdır.

**Hesabat ilində insan alveri** (15), **seksual xarakterli hərəkətlərə cəlb etmə, əxlaqsız yuvaları saxlama, yetkinlik yaşına çatmayanları ictimai mənəviyyata zidd əməllərə cəlb etmə, pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma cinayətlərinə görə 30** (+9) **təqsirləndirilən şəxs yerli axtarışda olmuş, onlardan 16** (+7) **nəfəri, o cümlədən 3** (-2) **insan alverçisi saxlanılaraq cinayət təqibi orqanına təqdim olunmuşdur.**

**Hazırda insan alveri cinayəti törətməkdə təqsirləndirilən 11** (-1) **nəfərin İnterpol kanalları ilə beynəlxalq axtarışı davam etdirilir. Həmin şəxslərin gizləndikləri ölkələr və barələrində digər zəruri məlumatlar əldə edilərək ikitərəfli və çoxtərəfli qarşılıqlı hüquqi yardım haqqında müqavilələrin tələblərinə uyğun ekstradisiyası üçün aidiyyəti üzrə müraciətlər ünvanlanmışdır.**

**Bununla yanaşı, informasiya texnologiyalarının** (WhatsApp, Tik-tok, İnstagram, Telegram sosial şəbəkələrində) **tətbiqi ilə törədilmiş 44** (-14) **müvafiq fakt da aşkarlanaraq Cinayət Məcəlləsinin 144-1-ci** (insan alveri) **maddəsi ilə 4** (+1), **243.1-ci** (fahişəliyə cəlb etmə) **maddəsi ilə 6** (+4), **182-ci** (hədə-qorxu ilə tələb etmə) **maddəsi ilə 1** (+1) **cinayət işi başlanılmışdır.**

İnsan alveri və məcburi əməklə bağlı olan cinayət işləri üzrə müəyyən edilmiş 91 (sabit) insan alveri qurbanının (90-ı qadın, 1-i kişi) hamısı Azərbaycan Respublikasının vətəndaşı olmuşdur. Onlardan 53-ü Türkiyə Respublikasında, 35-i Birləşmiş Ərəb Əmirliklərində, 2-i Qətər Dövlətində cinsi istismara, 1 nəfəri isə ölkə daxilində əmək istismarına məruz qalmışdır.

Qurbanlardan 12-i 18-25 yaş arası, 49-u 25-35 yaşlarında, 29-u 35 yaşdan yuxarı olan, habelə 19-u paytaxt, 72-i respublikanın digər şəhər və rayonlarının sakini, 78-i 2015-2023-cü illərdə, 13-ü isə 2024-cü ildə istismara məruz qalan şəxslər olmuşdur.

İnsan alveri qurbanlarının müdafiəsi, bu istiqamətdə hüquqi, sosial-iqtisadi tədbirlərin məqsədyönlü icrası da diqqətdə saxlanılmışdır. Onlardan 80 (-10) nəfərinin hər birinə 700 manat birdəfəlik müavinət ödənilmiş, 56 (-12) nəfəri müvəqqəti yaşaması üçün Daxili İşlər Nazirliyinin müvafiq sığınacağına yerləşdirilərək tibbi (HİV, AİDS, ginekoloji, terapevt), sosial, psixoloji, hüquqi və digər yardımlarla təmin edilmişdir. Daha 18 qurban peşə kurslarına yönəldilmiş, 9 nəfəri işlə təmin edilmiş, 1 əcnəbi qurbanın repatriasiyasında, 9 qurbana şəxsiyyət vəsiqəsi və 11 qurbanın ünvanlı sosial yardım almasında, 2 uşaq qurbanın təhsilini davam etdirməsi üçün İnteqrasiya təlimli internat məktəbinə qəbul olunmasında köməklik edilmiş, 44 qurbanın ailəsinə qayıdışı təmin olunmuşdur.

Qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmiş 69 insan alveri qurbanından 18-i "Təmiz Dünya Qadınlara Yardım", 10-u "Azərbaycan Uşaqları", 11-i "Təmas Regional İnkişaf" ictimai birliklərinin sığınacaqlarında, 10-u "Ailə Dünyası Ailələrə Hüquqi Yardım", 7-i "XXI Əsrin Qadınları", 6-ı "Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım", 7-i "Ümid Yelkənləri" ictimai birliklərində lazımi yardımlar almışlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Sosial Xidmətlər Agentliyinin İnsan alveri qurbanlarına Yardım Mərkəzinə istiqamətləndirilmiş 63 qurbandan 36-na psixoloji, 13-nə hüquqi yardım göstərilmiş, 3-ü peşə kurslarına cəlb edilməsi və 3 nəfər işlə təmin olunması üçün Dövlət Məşğulluq Agentliyinə istiqamətləndirilmiş, 3 qurbanın övladları isə məktəb ləvazimatları ilə təmin edilmişdir.

Vətəndaş müraciətləri əsasında və QHT-lər tərəfindən istiqamətləndirilmiş 17 potensial qurban da lazımi qayğı ilə əhatə olunmuş, habelə 88 (-10) qurbana və potensial qurbana Daxili İşlər Nazirliyinin müvafiq Kömək Fondu hesabına 5.050 (-250) manat məbləğdə maddi yardım edilmişdir.

Vəkillər Kollegiyasının üzvləri tərəfindən ümumilikdə 98 qurbana, o cümlədən 70 nəfərinə məhkəmə baxışında və 28 nəfərinə istintaq prosesində hüquqi yardım göstərilmişdir.

Qurbanların uşaqları da diqqətdə saxlanılaraq 16 nəfəri tədris ləvazimatı ilə, 12 nəfəri doğum haqqında şəhadətnamə ilə təmin olunmuş, 10 uşaq məktəbəqədər təhsil proqramına cəlb edilmiş, daha 10 nəfərinin aliment alması təşkil olunmuşdur.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 14-1.1-ci maddəsinə (bərpa və fikirləşmə müddəti) əsasən 7 (-3) qurbana öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanı ilə əməkdaşlıq haqda düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddəti verilmişdir.

Bununla yanaşı, "152" Qaynar xəttinə daxil olmuş 10.254 (+628) zəngin hər biri araşdırılmış, eləcə də təşəbbüskarlar hüquqları izah edilməklə aidiyyəti üzrə yönləndirilmişdir.

## Qarşıda duran vəzifələr

"Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün yeni Milli Fəaliyyət Planı"nın aidiyyəti qurumların təklifləri nəzərə alınmaqla yekunlaşdırılıb təqdim edilməsi, müvafiq sahədə davamlı hüquqi islahatların həyata keçirilməsi, mövcud resursların səmərəli istifadəsi, insan alveri cinayətlərinin iştirakçılarının təqibi, qurbanların aşkarlanması üçün süni intellekt, rəqəmsal alətlərdən istifadə edilməsi, müasir texnologiyaların tətbiqi ilə profilaktika işinin genişləndirilməsi və səmərəsinin artırılması qarşıda duran əsas vəzifələrdir.

Hazırda bu istiqamətlərdə fəaliyyət sistemli şəkildə davam etdirilir.

## İnsan alveri cinayətlərinin dinamikası

Azərbaycan Respublikası Daxili işlər Nazirliyi



## İnsan alveri cinayətlərində istismar formaları





## 2005-2024-cü illərdə məsuliyyətə cəlb edilən insan alverçilərinin cinsi mənsubiyyəti

Azərbaycan Respublikası Daxili işlər Nazirliyi



## 2005-2024-cü illərdə məhkəmə məsuliyyətinə cəlb edilmiş insan alverçiləri

Azərbaycan Respublikası Daxili işlər Nazirliyi



## Ağır Cinayətlər Məhkəməsi tərəfindən insan alverçilərinə tətbiq edilən cəzalar

Azərbaycan Respublikası Daxili işlər Nazirliyi



## İctimai mənəviyyat əleyhinə olan cinayətlər






2005-2024-cü illərdə aşkarlanmış insan alveri qurbanları
Azərbaycan Respublikası Daxili işlər Nazirliyi
120
100
80
60
40
20
0
1
86
101
78
91
34
29
53
56
54
63
70
71
98
91
94
95
94
91
91
2005
2006
2007
2008
2009
2010
2011
2012
2013
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022
2023
2024
1.441

**2024-cü ildə müəyyən edilmiş insan alveri qurbanlarının istismara məruz qaldığı illər üzrə bölgüsü**

Azərbaycan Respublikası Daxili işlər Nazirliyi



## İnsan alveri qurbanlarının istismara məruz qaldığı ölkələr




## İnsan alveri qurbanlarının vətəndaşı olduğu ölkələr



**2024-cü ildə müəyyən edilmiş insan alveri qurbanlarının yaş bölgüsü**




**2005-2024-cü illərdə müəyyən edilmiş insan alveri qurbanlarının cinsə görə bölgüsü**



Azərbaycan Respublikası Daxili işlər Nazirliyi

## İnsan alveri qurbanlarının respublikanın şəhər və rayonları üzrə bölgüsü



**2024-cü ildə İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının beynəlxalq və yerli tədbirlərdə iştirakına dair**

## Beynəlxalq və yerli tədbirlər




## Onlayn iştirak



# Qeyd üçün